# Uşaqlığımızın qəhrəmanları

Uşaqlar cizgi filmləri ilə böyüyür, özlərini cizgi film qəhrəmanlarına bənzədir və bəzən də ideallaşdırdıqları bu qəhrəmanları gündəlik həyatlarında yaşadırlar.

Hər birimiz "Göyçək Fatma", "Yalançı çoban", "Bulud niyə ağlayır?", "Dəcəl dovşan", "Güzgü" və ya "Qırmızı papaq", "Düyməcik", "Çəkməli pişik" kimi əzbər bildiyimiz nağıllar əsasında çəkilən cizgi filmlərini dəfələrlə izləmişik.

"Cırtdan" cizgi filmində balaca və zəif olsa da ağlı, fərasəti ilə divə qalib gələn, özünü və yoldaşlarını ölümdən qurtaran Cırtdan, "Balaca çoban"da babası ilə yaylağa gedən və özü üçün maraqlı işlə məşğul olan balaca oğlan, "Çətin məsələ"də balaca quzunun başına gələn hadisələr və ya "Uçan zürafə"də özünü qeyri-adi qabiliyyətli zənn edən zürafə hamıya yaxşı məlumdur.



Bəs uşaqlığımızın ayrılmaz hissəsi olan və sevə-sevə izlədiyimiz bu cizgi filmləri necə hazırlanır?

**Cizgi filmləri üzrə rəssam-multiplikator Vasif Səftərov** cizgi filmi sənəti haqqında danışaraq deyir:

—Kinonun əsas növlərindən biri olan cizgi filmləri əsasən uşaqlar üçün nəzərdə tutulduğundan burada fantastika, uydurma, təxəyyül əsas yer tutur. Bu sənətdə əvvəlcə hərəkətin qaydalarını, mexanizmini, hadisələrin ardıcıllıqla düzülməsini öyrənmək lazımdır. Cizgi film çəkilişi ilə məşğul olan şəxs ilk öncə aktyorluq, pantomima sənətini və ən əsası isə uşaq psixologiyasını bilməlidir. İzləməkdən doymadığımız cizgi filmlərinin hazırlanması əslində çox böyük zəhmət hesabına başa gəlir. Bu filmlərin hazırlanması bir neçə mərhələdən keçir. İlkin mərhələdə məqalə hazırlanıb təsdiq edilir ki, bu da çox məsuliyyətli işdir. Məqalədə valideynin övladına çatdırmaq istədiyi fikirlər, ona aşılamaq istədiyi keyfiyyətlər; yaxşı ilə pis, çalışqan ilə tənbəl, məsuliyyətli ilə məsuliyyətsiz xarakterləri balacalar tərəfindən asanlıqla başa düşülməlidir.

Daha sonra rəssam-multiplikator tərəfindən təyin olunmuş obrazlar kağıza həkk olunur və kompüterə köçürülür. Bu prosesdə əsəbləri sarsıtmayan, gərginlik yaratmayan obrazların seçilməsi vacibdir.

Əsas proseslərdən biri də obrazların rənglənməsidir ki, burada da uşaq təxəyyülü nəzərə alınmalı, sərt, göz ağrıdan rənglərdən az istifadə olunmalıdır. Rənglərin uyğunsuzluğu və qarışıqlığı uşağın azyaşlı olmasına baxmayaraq, əsəbi və aqressiv olmasına səbəb olur. Ən çətin proseslərdən biri də filmlərin səsləndirilməsidir. Canlandırılan obrazın düzgün, dəqiq dərk olunmasında səsləndirmənin böyük əhəmiyyəti var. Bəzi müasir cizgi filmləri uşaqları qorxudan, qəfil və gözlənilməz yüksək tonlu səslə verilir. Səslənmə anlaşılan olmalıdır. Obrazları səsləndirmək üçün aktyorluq keyfiyyətlərinə malik olmaq vacibdir. Ən sonda isə kompüter proqramları əsasında obrazlar hərəkətə gətirilir.

Bəzən qəhrəmanların aqressivliyinin, onların ətrafa ziyan verməyə can atmasının, digərlərini incitməsinin şahidi oluruq. Etiraf etməliyik ki, son vaxtlar efirdə yayımlanan, uşaqların sevərək izlədiyi bir çox cizgi filmləri daim biri-digərini vurmağa və ya suda boğmağa çalışan obrazlarla zəngindir.

Təbii ki, belə nümayişlər uşaqlarda ətraf mühitə və hətta doğmalarına qarşı hiddət, qəddarlıq kimi xüsusiyyətlər formalaşdırır. Çox zaman personajların təhlükəli davranışını izləyən uşaqlar onları təkrar edərək heç də xoş olmayan nəticəyə səbəb olurlar. Buna görə də valideynlər övladları üçün cizgi filmi seçərkən diqqətli olmalıdırlar. Bir sözlə, cizgi filmləri elə hazırlanmalıdır ki, uşaqların psixologiyasına mənfi təsir göstərməsin, onları düşündürsün və maarifləndirsin. Cizgi filmlərində mehribanlıq, insanseverlik təbliğ olunmalıdır.



Balacalara özünü başqalarından üstün tutmamaq, dost qazanmaq üçün dostluq etməyi bacarmaq, insanlara mehribanlıqla, həssaslıqla yanaşmaq, təbiəti qorumaq, heyvanları incitməmək, yaxşı oxumaq, xeyirxah olmaq kimi gözəl xüsusiyyətləri məhz cizgi filmləri ilə aşılamalıdırlar.

**Arzu MƏMMƏDNAĞIYEVA.**